*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2026, №1* *ISSN: 2664-5432*
*Səhifə: 164-171*
https://doi.org/10.59849/2664-5432.2026.1.164

**Nuridə SADİQOVA**[*]

# KALİNİNO RAYONUNUN TOPONİMLƏRİ

## XÜLASƏ

Hər bir xalqın tarixi, coğrafi sərhədi, mədəniyyəti, milli-etnik dəyərləri haqqında müvafiq məlumatların mühafizəsi, məhz toponimika elmi sahəsində aktuallıq kəsb edir. Dilimizin tarixi, xalqımızın etnogenezi haqqında tam və aydın təsəvvür yaradan toponimlər müasir dilçilik elminin aktual tədqiqat obyekti kimi coğrafi və tarixi kontekstlə vəhdətdə linqvistik və kulturoloji xüsusiyyətləri üzə çıxarmağa imkan verir. Bu mənada, Qərbi Azərbaycan toponimlərinin öyrənilməsinin xüsusi nəzəri və praktiki əhəmiyyəti vardır.

**Açar sözlər:** *Qərbi Azərbaycan, Kalinino, türkmənşəli, toponimlər.*

Toponimika müvafiq coğrafi adların məcmusunu, mənşəyini, təkamülünü, etimologiyasını, o cümlədən yayılmasını, paralelliyini öyrənən elm sahəsidir. Hər hansı bir xalqın tarixi keçmişini araşdırmaqla bərabər, gələcək inkişaf yollarına zəmanət verən bu sahə coğrafiya, tarix və dilçiliyin tədqiqat obyekti kimi vəhdətdə tədqiq edilir. Hər bir xalqın tarixi, coğrafi sərhədi, mədəniyyəti, milli-etnik dəyərləri haqqında müvafiq məlumatların mühafizəsi, məhz toponimika elmi sahəsində aktuallıq kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 5 fevral 2008-ci il və 26 aprel 2012-ci il tarixlərində doğma diyarın mədəniyyət abidələrinin hərtərəfli öyrənilməsinə yönəlmiş sərəncamlar imzalamışdı. Bu, tarixi abidələrin daha dərindən araşdırılmasına, eləcə də bir sıra tədqiqat işlərinin aparılmasına səbəb olmuşdur. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş “Tarixi və mədəni abidələrin və qoruqların bərpası və qorunması sahəsində fəaliyyətin inkişafı və təkmilləşdirilməsi üzrə 2014-2020 -ci illər üçün Dövlət Proqramı” Azərbaycan mədəniyyəti tarixində yeni bir mərhələ olmuş və toponimika ilə bağlı tədqiqatların genişləndirilməsi müasir dilçilik elminin qarşısında mühüm vəzifələr qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən çıxışında qeyd etmişdir:

“Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan edib, dağıdıblar, Azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən

[*] AMEA Nəsimi adına Dilçilik İnstitutu Toponimika şöbəsi. Email: nuridesadiqova@0gmail.com

xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb". Qeyd edək ki, toponimlərimizin saxtalaşdırılmasını aşkarlayan arxiv materialları da var.

1886-cı ildə E. Kondratenkonun redaktəsi ilə tərtib olunmuş İrəvan quberniyasının xəritəsində yer alan toponimlər Azərbaycan dilindədir: Sarvanlar, Arzu kənd, Sərdarabad, Güllücə, Daşvurun, Qazı-Qışlaq, Mehriban, Şirabad, Qəmərli, Kamalı, Molla-Göyçə, Yaqublu, Alagöz, Gözəl dərə, Qara xal, Xeyir-bəyli, Əli Məmmədli, Baş-abaran, Göyçə gölü və s. Xəritədəki toponimlərin türkmənşəli olması faktı Qərbi Azərbaycan ərazisinin qədim və yerli sakinlərinin Azərbaycanlılardan ibarət olması bir daha öz təsdiqini tapmışdır.

Qərbi Azərbaycan toponimlərinin müəyyən qisminin yer tapdığı Rusiya imperiyasının Tiflis şəhərində yerləşən Qafqaz Hərbi Dairəsinin Hərbi Topoqrafiya bölməsi tərəfindən hazırlanaraq Sankt-Peterburq şəhərində çap edilən "Cənubi Qafqaz 1903-cü il" xəritəsi həmin məkanın onomastik güzgüsüdür. Bu mənada, Qərbi Azərbaycanın Kalinino rayonundakı toponimlərinin tədqiqi xüsusi maraq doğurur:

Kalinino (1935-ci ilə qədər Vorontsovka) əvvəl Pəmbək qəzasının tərkibində olmuşdur. Ərazisi cənubdan Allahverdi rayonu, digər tərəfdən Başkeçid rayonu ilə həmsərhəddir. Şimaldan dağ silsilələri ilə (ən yüksək zirvə – Gözdağı) əhatələnmişdir.

Tarixi mənbələrə əsasən X əsrdə rayon Taşir-Loru feodal knyazlığının tərkibində, sonralar Taşir qəzası İran və səlcuq türklərinin sülalələrinin hakimiyyəti altında olmuşdur. 1918-ci ilə qədər Taşir Tiflis quberniyasının Qazax-Şəmşəddin dairəsinə daxil idi, 1919-1920-ci illərdə Loru, 1921-1930-cu illərdə isə Loru-Pəmbək qəzasının tərkibində olmuşdur.

Kalinino rayonunun toponimləri:

**Dəmirçilər** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 9 km şimal-qərbdə yerləşir. 1937-ci ilə qədər Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Kənd 1950-ci ilin axırlarında **Evli** adlı heyvandarlıq sovxozuna birləşdirilmişdir. Toponim *şahsevən* türk tayfasının bir qolunu təşkil edən *dəmirçilər* etnonimi (ASE, III c. s.466) əsasında əmələ gəlmişdir. XIII əsr tarixçisi Şəhabəddin Nəsəvi dəmirçiləri Çingiz xanın nəsli ilə bağlayır. "Azərbaycanın coğrafi adları" kitabında dəmirçi tayfasının Şahsevən qəbiləsinə mənsub nəsil olduğu göstərilir (Yüzbaşov: 1972, s. 40).

**İlməzli** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 7-8 km şimal-qərbdə yerləşir. Kalinino rayonu yaradılanadək Cəliloğlu rayonunun tərkibində olmuşdur. Toponim türk dilində tayfa mənasında işlənən il//el sözü ilə qədim türk dilində "təpə" mənasında işlənən *mar* sözünün fonetik forması olan *maz* sözündən əmələ gəlmişdir. Azərbaycan dilində r~z səs əvəzlənməsinin (yor~ yoz, yar~yaz, gör~göz) qanunauyğun fonetik hadisə olduğunu nəzərə almaqla, qeyd edə bilərik ki, *maz* mar sözünün fonetik formasıdır.

**Qaraisa** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-qərbdə yerləşir. 1937-ci il dekabrın 31-nə kimi Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Toponim üçoxlara mənsub *Qara İsalı* türk tayfasının adından əmələ gəlmişdir (Sümər:1992, s.185).

**Qaraqala** – Kalinino rayonunda kənd. 1930-cu illərdə Yuxarı Qaraqala və Aşağı Qaraqala kəndləri birləşdirilərək yaradılmışdı. 1950-ci ilin sonlarında rayondakı **İlməzli** adlı heyvandarlıq sovxozu ilə birləşdirilmişdir. Orta əsrlərə aid tarixi abidələr, qalalar, qəbiristanlıqlar var.

**Aşağı Qara qala** – Kalinino rayonunda kənd. 1930-cu ildən sonra rayonun yuxarı Qaraqala kəndi ilə birləşdirilib. 1937-ci ilədək (Kalinino rayonu yaradılanadək) Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Toponim *qara* və *qala* sözlərinin birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki *aşağı* sözü kəndin yerləşdiyi yer, relyef ilə bağlı əlavə edilmişdir.

**Yuxarı Qaraqala** – 1930-cu illərdə rayondakı Aşağı Qaraqala kəndi ilə birləşdirilib. 1937-ci ilə kimi Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Toponim türk dilində rəng mənasında işlənən *qara* və *qala* sözlərinin birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki *yuxarı* sözü kəndin yerləşdiyi yer, relyef ilə bağlı əlavə edilmişdi.

**Qızıldaş (Qızılkilsə)** – Kalinino rayonunda kənd. 1930-cu ildə Cəlaloğlu rayonunun tabeliyində olmuşdur. Rayon mərkəzindən 14 km şimal-şərqdə, Dəmirçilər kəndinin yaxınlığında yerləşir. "İrəvan əyalətinin icmal dəftərin" də, Qafqazın 5 verstlik xəritəsində adı qeyd edilmişdi. Kəndin bir adı da **Dağ Qarakilsə** olmuşdur (415, s.78). Toponim qırmızı mənasında işlənən *qızıl* və *kilsə* sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Cücəkənd** – Kalinino rayonunda kənd. 1937-ci ilə kimi Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Rayon mərkəzindən 15 km şimal-qərbdə, **İlməzli** kəndinin yaxınlığında bir-birinə bitişik üç təpə üzərində yerləşir. Toponim monqol sərkərdəsi Cuci xanın adı əsasında formalaşan ***cuyci*** ulusunun adından (ASE, X c., 1987, s.449) yaranmışdır. Yəni toponim ***cuyci*** nəsil adı ilə *kənd* sözünün birləşməsindən əmələ gəlmişdir. Sonradan fonetik hadisə nəticəsində "y" səsi düşmüş, **Cüycikənd** i~ə səs əvəzlənməsi nəticəsində isə toponim **Cücəkənd** formasında qalmışdır.

**Qarakilsə** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində kəndin adı *Qarakilis* formasında qeyd edilmişdi. Burada Qarakilsə adlı iki kənd olmuşdur: Böyük Qarakilsə və Kiçik Qarakilsə.

**Şahnəzər** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir. Toponim şəxs adı əsasında əmələ gəlib. Antropotoponimdir.

**Boğazkəsən yolu** – Kalinino rayonu, Cücəkənd ərazisində mikrotoponim.

**Böyük təpə** – Kalinino rayonu, Cücəkənd ərazisində oronim. Oronim Azərbaycan dilində "geniş, hündür, iri" mənasında işlənən *böyük* sözü ilə "kiçik dağ" mənasında işlənən *təpə* sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaraarxac** – Soyuqbulaq kəndində yaylaq. Oronim türk dilində “böyük” mənasında işlənən *qara* sözü ilə Azərbaycan dilində “qoyun, mal yatağı” mənasında işlənən *arxac* sözünün (9, s.129) birləşməsindən əmələ gəlmişdir.

**Qızqala** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 8 km cənubda, Saratovka kəndindən 1,5-2 km məsafədə yerləşir. Toponim ərəb dilində oğuz etnonimini əks etdirən *qız* (ğuz>qız) etnonimi ilə (238, s.48) *qala* sözünün birləşməsindən əmələ gəlib, “oğuz qalası yanında olan kənd” mənasını verir.

**Saraclı** – Kalinino rayonunda yaylaq. Rayon ərazisindəki Cücəkənddə yerləşir. Oronim *sarıcalı* türk tayfasının adından (207, s.104-105) götürülmüşdür.

**Sarı dərə** – Kalinino rayonu, Cücəkənd ərazisində dərə.

**Sarıyar** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə yerləşir.

**Soyuqbulaq** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 11 km şimal-qərbdə, Qaraarxac dağının ətəklərində yerləşir. 1937-ci ilə kimi Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Toponim *soyuq* və *bulaq* sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Xırdacalalar** – Kalinino rayonunda sahə, yer. Cücəkəndin cənub-şərq tərəfində yerləşir. Toponim Azərbaycan dilində “kiçik, alçaq, geniş olmayan” mənasında işlənən *xırda* sözü və cəm şəkilçisi (*-lar*$^2$) qəbul etmiş “bataqlıq yerdə olan otlaq” mənasında işlənən *cala* sözünün birləşməsindən əmələ gəlmişdir.

**Hacıxəlil ocağı** – Kalinino rayonundakı Cücəkənd ərazisində ocaq.

**Çaxmaqlıdağ** – Kalinino rayonunda dağ. Cücəkəndinin şimal-şərqində yerləşir. Oronim *Şahsevən* türk tayfasından olan *çaxmaqlı* etnonimi (93, s.87-88) əsasında formalaşmışdır.

**Qırmızı daş** – Kalinino rayonunda dağ. Cücəkənd ərazisində yerləşir. Oronim *qırmızı* və *daş* sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Qollu daşın yolu** – Kalinino rayonunda əkin sahəsi. Cücəkəndin cənub tərəfində yerləşir. Digər adı “**Qollunun yolu**” dur.

**Qurdqala** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir. Rayon təşkil edilənədək Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Toponim türk mənşəli *qurd* etnonimi (286, s.61) və qala sözlərinin birləşməsindən əmələ gəlib. “Qurd tayfasına mənsub qala yanında salınan kənd” mənasındadır.

**Dəvəqılıcı** – Kalinino rayonunda dağ. Cücəkənd ərazisində yerləşir. Oronim “dağ aşırımı, hündür dağ keçidi” mənasında işlənən *dəvə* (dava//daba) və (253, s.100-101; 339, s. 168-169) “dikdir, yoxuşun başı” mənasında işlənən *qılıc* sözlərinin (253, s.16; 278, s.53) birləşməsindən əmələ gəlmişdir.

**Dəlidağ** – Kalinino rayonunda dağ. Cücəkəndin şərqindədir. Oronim hunların *tele* (dəli) etnonimindən götürülmüşdür (180, s.21,25).

**Ətlik gölü** – Kalinino rayonunda göl. Cücəkənd ərazisində yerləşir.

**Kalafalar** – Kalinino rayonunda sahə. Cücəkənd ərazisində yerləşir. Mikropotonim Azərbaycan dilində “dağılmış tikintinin qalığı, dağılmış yer,

xarabalıq" mənasında işlənən kalafa sözünə (11, s.10) -lar şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Kiçik təpə** – Kalinino rayonunda dağ. Rayondakı Cücəkənd ərazisində yerləşir. Oronim Azərbaycan dilində "balaca, xırda" mənasında işlənən *kiçik* sözü və "kiçik dağ" mənasında işlənən *təpə* sözlərinin (12, s.165) birləşməsi əsasında əmələ gəlmişdir.

**Koroğlu qalası** – Kalinino rayonunda qala. Molla Eyyublu kəndinin cənubunda yerləşir.

**Gilliyin düzü** – Kalinino rayonunda düz. Cücəkənd ərazisində yerləşir. Toponim məkan mənası bildirən *-lik*$^4$ şəkilçisinin qəbul etmiş "yer səthində və ya altında olan, yaş halda özlü kütləyə çevrilən çöküntü süxuru" mənasında işlənən *gil* və (11, s.163) relyef bildirən *düz* sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Molla Eyyublu** – Kalinino rayonunda kənd. Rayon mərkəzindən şimal-şərqdə yerləşir. 31 dekabr 1937-ci ilə Kalinino rayonu təşkil edilənə qədər Cəlaloğlu rayonunun tərkibində olmuşdur. Mənbələrdə kəndin digər adlarının **Molla Eyyub**, **Molla Yublu** olduğu da göstərilir (415, s.78). Toponim *Eyyublu* etnonimi əsasında əmələ gəlib, "Eyyublu tayfasından olan mollaya məxsus kənd" mənasındadır.

**Oy dərəsi** – Kalinino rayonunda dağ. Cücəkənd ərazisində yerləşir. Oronim qədim türk dilində "çala, çuxur, çökək, qobu, düzən" mənasında işlənən *oy* (365, s.425-426; 337, s.238; 339, s.408-409) və *dərə* sözlərinin birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

Türkmənçay müqaviləsindən (1828) sonra çar Rusiyası tərəfindən Cənubi Qafqaza, o cümlədən İrəvan xanlığı ərazisinə kütləvi şəkildə köçürülən ermənilər türk toponimlərini dəfələrlə dəyişdirməklə əsl tarixi adları itirməyə çalışmışlar. Bu hal sovet hakimiyyəti illərində xüsusilə kütləvi xarakter daşıyırdı. Statistik hesablamalara görə, belə toponimin sayı iki mindən çoxdur. 1991-ci ilədək ərazinin toponimlərindən 90 faizdən çoxu türk mənşəli adlardan təşkil olunmuşdu.

Qərbi Azərbaycanda onomastik mənzərənin dəyişdirilməsinə ilkin cəhdlər XIX əsrin 20-ci illərindən sonra baş verdi. Regionun işğalı ilə Güney Qafqazın imperiya sərhədlərinə daxil edilməsi yekunlaşandan dərhal sonra İrəvan xanlığının bazasında dini mənsubiyyətə hesablanan strateji dayaqlar yaratmaq prosesi başlanıldı. Xanlığın ərazisində Erməni Vilayətinin yaradılması ilə bağlı imperator Fərmanı verildikdən bir il sonra – 1829-cu ildə tarixçi-etnoqraf İvan İvanoviç Şopen Qafqaz canişini Paskeviçdən "Şərqi Ermənistanın ərazisinin təsvirini tərtib etmək üçün" İrəvana gəlmək əmrini alır. O, 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Rusiya imperiyasının tərkibinə verilən və "Ermənistan Vilayəti" adlandırılan İrəvan və Naxçıvan xanlıqlarının ətraflı tədqiqi ilə məşğul olur. Dövlət işləri ilə bahəm tarixçi-etnoqraf həm də gələcək kitabları üçün material toplayarkən müxtəlif millətlərin nümayəndələri ilə görüşür, onların adət-ənənələrini, mədəniyyətini müşahidə edirdi. Rus Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin protokolunda İ.İ. Şopenin Qafqaz haqqında qədim müəlliflərin mənbələri əsasında ayrıca kitab kimi nəşr etmək niyyəti barədə məlumat verilirdi. Həqiqətən də

etnoqraf-tarixçinin "Ermənistan vilayətinin Rusiya imperiyasına birləşməsi dövründəki dövlətin tarixi abidələri" kitabı 20 il sonra nəşr olundu. Onu qeyd edək ki, Güney Qafqazın kulturoloji qatlarını öyrənmək baxımından qiymətli mənbə sayılan bu kitab sonradan xüsusilə Azərbaycan tədqiqatçıları üçün əvəzsiz ədəbiyyat nümunələrindən biri kimi tanındı. Rəsmi dövlət sənədləri və müasirləri ilə aparılan müsahibələr əsasında hazırlanan o kitab Qərbi Azərbaycan ərazilərində meydana gətirilən Ermənistan dövlətinin etnosid siyasətinin ifşası üçün başlıca vasitə oldu. XIX əsrin ikinci yarısında nahiyə və qəzalara, XX əsrin 30-cu illərində rayonlara bölünən inzibati ərazilərdəki onomastik vahidlərə nəzər salaq: Ağin, Axta, Allahverdi, Barana, Böyük Qarakilsə, Calaloğlu, Çəmbərək, Düzkənd, Ellər, Ərtik, Əştərək, Gorus, Hamamlı, Karvansaray, Keşişkənd, Kəvər, Qafan, Qarakilsə, Qaranlıq, Qəmərli, Qızılqoç, Meğri, Paşalı, Sərdarabad, Şəmşəddin, Talin, Üçkilsə, Vedi, Vorontsovka, Yelenovka, Zəngibasar. (Hüseynova: s.2)

**VORONTSOVKA (KALİNİNO) RAYONU ÜZRƏ**




| № | Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|---|
| 1 | Vorontsovka | Kalinino | 3.03.1935 |
| 2 | Boqdanovka | Noraşen | ---------- |
| 3 | Qızılkilsə | Qızıldaş | 3.01.1935 |
| 4 | Molla Eyyublu | Evli | ---------- |
| 5 | Cücəkənd | Qızıl Şəfəq | 3.01.1935 |
| 6 | Qarakilsə | Lernhovit | 25.01.1978 |
| 7 | Qızqala | Getavan | 25.01.1978 |
| 8 | Lorsovxoz qəs. | Katnarat qəs. | 25.01.1978 |
| 9 | Şahnəzər | Medzavan | 25.01.1978 |
| 10 | Qurdqala | Petrovka | ---------- |
| 11 | Sarıyal | Sariar | ---------- |
| 12 | Kalinino rayonu | Taşir rayonu | |
| 13 | Qaraqala | Noramut | 19.04.1991 |
| 14 | Qaraisa | Meğvahovit | 19.04.1991 |
| 15 | Qızıldaş /Qızılkilsə/ | Aruni | 19.04.1991 |
| 16 | Dəmirçilər | Qoçavan | 19.04.1991 |
| 17 | Evli /Molla Eyyublu/ | Dzaramut | 19.04.1991 |
| 18 | Sariar /Sarıyal/ | Apavan | 19.04.1991 |
| 19 | Soyuqbulaq | Paqaxpyur | 19.04.1991 |

Qərbi Azərbaycan toponimlərinin öyrənilməsinin xüsusi nəzəri və praktiki əhəmiyyəti vardır. Bu toponimlər yerli əhalinin – Azərbaycan türklərinin tarixini, türk tayfalarının adını (quqark, gorus, sak, aynın, qıpçaq, qaraqoyunlu, şirak, peçenek, axta, kəvər və s.), coğrafi terminləri (dağ, dərə, düz, təpə, tap, taxt, yal, nüvək, ova, gədik və s.) əks etdirir. Türk mənşəli toponimlərinin araşdırılması H. Mirzəyevin tədqiqatlarında xüsusi yer tutur (Mirzəyev: 1997, s.174-257). Qərbi Azərbaycanın toponimlərinin öyrənilməsində Q. Qeybullayevin də xüsusi əməyi

vardır. O, indiki Ermənistan toponimiyası ilə bağlı yazdığı əsərinin II fəslini («Ermənistanda qədim türk mənşəli toponimlər») Qərbi Azərbaycanın qədim türk mənşəli toponimlərinə həsr etmiş (Qeybullayev: 1992) və türklərin həmin ərazinin köklü sakinləri olduğunu təkzibedilməz tarixi faktlar və toponimik materiallar əsasında izah etmişdir (Qeybullayev: 1992).

Dilimizin tarixi, xalqımızın etnogenezi haqqında tam və aydın təsəvvür yaradan toponimlər müasir dilçilik elminin aktual tədqiqat obyekti kimi coğrafi və tarixi kontekstlə vəhdətdə linqvistik və kultroloji xüsusiyyətləri üzə çıxarmağa imkan verir. Bu mənada, Qərbi Azərbaycan toponimlərinin tarixilik baxımından araşdırılması, dilçilik aspektində təhlil edilməsi Azərbaycan türklərinin «etnogenezinə, tarixinə, sosial məişətinə və məskunlaşdığı coğrafi əraziyə dair mühüm və orijinal mülahizələr» (Məşədiyev: 1991, s. 11) söyləməyə imkan verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Sovet Ensiklopediyası, X c., Bakı, 1987.
2. Azərbaycan Sovet Ensiklopediyası, III c., Bakı, 1987
3. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, “Elm”, 2002.
4. Cavad H. Türklərin tarix və mədəniyyətinə bir baxış (İslamdan əvvəl və islam dövrü). Başlanğıcından XVI əsrə qədər, Bakı, Azərnəşr, 1993, 176 səh.
5. Ələkbərli Ə. Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz. Bakı, “Elm və təhsil”, 2020.
6. Hüseynova M. Qərbi Azərbaycanın toponimləri: Milli kimliyin izləri. “Xalq” qəzeti, 10.04.2025.
7. İsmayılov R. Vorontsovka rayonu türk dünyasının ayrılmaz hissəsidir. Azpolitiko. info. Qərbi Azərbaycan xronikası. 04.02.2025
8. Qeybullayev Q.Ə. Qədim türklər və Ermənistan, Bakı, 1992, 140 səh.
9. Quliyeva E.A. Azərbaycan toponomiyasında paralellik, NDA, Bakı, 1994, 26 səh.
10. Məşədiyev Q.İ «Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi» ndə (СМОМПК) qeydə alınmış Azərbaycan (türk) mənşəli toponimlərin tarixi-linqvistik təhlili, (dok. disser), Bakı, 1991.
11. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı, ADPU, 1997, 352 səh.
12. Mirzəyev H. Azərbaycan toponimləri və şivə sözləri. - Bakı: “Elm”, 2006, 536 səh.
13. Sümər F. Oğuzlar, Bakı, “Yazıçı”, 1992, 432 səh.
14. Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycanın coğrafi adları (oçerklər), Bakı, “Maarif», 1972, 100 s.

## ТОПОНИМЫ КАЛИНИНСКОГО РАЙОНА

**РЕЗЮМЕ**

Информации об истории каждого народа, его географических границах, культуре, национально - этнических ценностях приобретает особую актуальность именно в области науки топонимики. Топонимы, создающие полное и ясное представление об истории нашего языка и этногенезе нашего народа, как актуальный объект современного языкознания позволяют выявить лингвистические и культурологические особенности в единстве с географическим и историческим контекстом. В этом смысле изучение топонимов Западного Азербайджана имеет особое теоретическое и практическое значение.

**Ключевые слова:** *Западный Азербайджан, Калинино, тюркского происхождения, топонимы.*

## TOPONYMS OF THE KALININO DISTRICT

**ABSTRACT**

The preservation of relevant information about the history, geographical boundaries, culture, and national-ethnic values of every nation is of particular importance in the field of toponymy. Toponyms, which provide a clear and comprehensive understanding of the history of our language and the ethnogenesis of our people, serve as an important object of modern linguistic research, enabling the identification of linguistic and cultural characteristics in unity with geographical and historical contexts. In this regard, the study of the toponyms of Western Azerbaijan has special theoretical and practical significance.

**Keywords**: *Western Azerbaijan, Kalinino, Turkic-origin, toponyms.*